# Onore de Balzak
# (1799-1850)

Balzak 1799-cu ildə may ayının 20-də Tur şəhərində anadan olmuşdur. Onun atası Fransua Balzak mənşəyi etibarilə kəndli idi. Ancaq birinci Fransa inqilabı zamanı müxtəlif hiylə, kələk və dəllallıq yolu ilə, xüsusən zəbt edilmiş zadəgan torpaqları hesabına varlanmışdır. Balzak 1806-cı ildən Vandon kollecinə daxil olmuş, lakin dərslərini çox pis oxumuşdur. Ona görə ki, kollecdəki dini kilsə təlimi onu qətiyyən maraqlandırmırdı. O, gizlicə Didronun, Russonun əsərlərini oxuyur. Kollecin rəhbərliyi onun bacarıqsız, tənbəl bir tələbə kimi tanıyır və qadağan olunmuş kitablar oxuduğuna görə tez-tez karserə salırdı. Valideynləri ondan tələb edirdilər ki, kolleci qurtardıqdan sonra hüquqşünas olmağa hazırlaşsın. Balzakın ədəbiyyata böyük marağı olmasına baxmayaraq o, ata-anasının iradəsinə əməl edib hüquq məktəbinə daxil olur. Ancaq bu iş onu maraqlandırır. O, atasından güc-bəla ilə iki il möhlət alır, bu müddətdə, o atasına sübut etməli idi ki, yazıçı olmaq arzusu ancaq adi bir şıltaqlıq deyildir. Atası razılıq verir, ancaq oğluna olduqca pis baxır. Belə ki, Balzak odsuz-ocaqsız soyuq daxmada ağır ehtiyat içərisində yaşamalı olur. Ancaq bunlar Balzakı ruhdan salmır. O, böyük inadla ilk ədəbi əsəri olan **«Kromvel»** mənzum faciəsini qələmə alır. Balzak bu mövzunu təsadüfən seçməmişdi. O dövrün yazıçılarını XVII əsr İngiltərə inqilabının böyük şəxsiyyəti Kromvel çox maraqlandırırdı. Balzak yazdığı əsərdən razı idi. Ona elə gəlirdi ki, böyük bir əsər yazmışdır. Ancaq ailə üzvləri bir səslə belə hesab etdilər ki, dram heç bir şeyə dəyməz, atasının verdiyi möhlət isə qurtarmışdı. Lakin Balzak bundan sonra yazıçı olmaq fikrindən nəinki daşınmır, əksinə öz qərarından dönməyəcəyini qeyd edir. Qeyd edək ki, Balzak şəxsi həyatında da müvəffəqiyyət qazana bilmədi. Polşa qrafinyası Eveniliya Qanskaya ilə evlənməsi uğursuz oldu. Balzak bu izdivacı uzun müddət gözləmiş və ancaq ömrünün son ilində buna nail ola bilmişdi. 1800-cü ilin mart ayında Balzakla Qanskaya Berdiçevdə kəbin kəsdirirlər və bundan sonra Parisə qayıdırlar. Elə bu vaxtdan Balzakın səhhəti olduqca pisləşdi, yaradıcılıq qüvvəsi zəifləməyə başladı və 1850-ci ilin avqustunda Balzak vəfat etdi.

Balzakın əsl yaradıcılığı 1829-cu ildən, **«Şuanlar»** romanı çapdan çıxdıqdan sonra başlayır. Bu əsər ona şöhrət gətirən ilk romandır.

«Şuanlar»Balzakın sonradan **«Bəşəri komediya»**sı romanlar silsiləsinə daxil etdiyi ilk romandır. O «Bəşəri komediya» silsiləsini yaradarkən xatirələrində yazır: «Bir dəfə mən nəzərdə tutduğum silsiləyə ad qoymaq qərarına gəldim. Elə bu vaxt dostum mənə təşrif buyurdu. O, indicə Dantenin məşhur «İlahi komediya»sını oxuduğunu və bundan bərk təsirləndiyini vurğuladı. Dostum gedəndən sonra onun bu sözü məni bərk düşündürdü və belə qərara gəldim ki, bir halda ki, Dante o dünyanı vəsf edib, mən də real dünyanın obrazını yaradım. Buna uyğun mən öz silsiləmə «Bəşəri komediya» adını verdim». Qeyd edək ki, Dante də öz əsərinə «komediya» adını verib. Əslində bu ondan asılı olmayaraq belə idi. Çünki o dövrdə əgər əsər pis başlanğıcla başlayıb yaxşı sonluqla bitərdisə, deməli, həmin əsər "komediya" adlanmalı idi. Əsərə "ilahi" adının verilməsinin səbəbi də vardır. Belə ki, Dantenin ölümündən sonra başqaları əsərə bu adı veriblər. Bunun da iki səbəbi vardır: Əvvəla, əsər ilahi qüdrətlə yazılmışdır; digər tərəfdən isə, əsər ilahi aləmdən bəhs edirdi. Balzakın «Bəşəri komediya»sına 120-dən çox əsər daxil edilməli idi. Lakin müəllif 95 əsərini yaza bilmişdi. Bu əsərləri ədib etüdlərə görə bölmüş və beləcə üç qrup etüd yaranmışdır: a) fəlsəfi etüdlər; b) əxlaqi etüdlər; c) analitik etüdlər.

Birinci hissə də altı bölməyə ayrılır: «Şəxsi həyat səhnələri» («Qobsek», «Qorio ata», «30 yaşında qadın», «Polkovnik Şaber» və b. ).

«Əyalət həyatının səhnələri» («Yevgeniya Qrande», «Qədim şeylər muzeyi», «Məhv olmuş xəyallar»ın birinci və üçüncü hissəsi və b.)

«Paris həyatının səhnələri»(«Sezar Biroto», «Nusinjenin ticarət evi» və b.)

«Siyasi həyat səhnələri»(«Qaranlıq iş»)

«Hərbi həyat səhnələri»(«Şuanlar»)

«Kənd həyatı səhnələri»(«Kəndlilər», «Kənd həkimi», «Kənd Ruhanisi» Birinci hissə «Əxlaqi etüdlər», yazıçının fikrinə görə, 111 əsərdən ibarət roman idi, ancaq 72-si yazılmışdır.

İkinci hissə, «Fəlsəfi etüdlər» bölmələrə ayrılmamışdır. Balzak bu hissədə 27 roman və novella yazmağı nəzərdə tutmuşdu, ancaq 22-ni yaza bilmişdi: «Şaqren dərisi», «Müəmmalı şah əsər», «Abi-kövsər» və b.

Üçüncü hissə «Analitik etüdlər»dir. Yazıçı bu hissəyə 5 əsər daxil etmək istəyirdi, ancaq 2-ni yazmışdır: «Kəbin fiziologiyası», «Ailə həyatının əzabları».

Balzak özünün «Bəşəri komediya»sı haqqında yazırdı: «Mən bu silsilədə istədim ki, Fransanın tarixini, təbəqələrini, problemlərini, məişətini qələmə alım». Başqa sözlə, müəllif ensiklopedik silsilə yaratmaq istəyirdi. Balzak yaradıcılığında xüsusi cəhətlərdən biri odur ki, o da Kuper kimi ayrı-ayrı

qəhrəmanlarını tipikləşdirilmiş şəkildə əsərlərində oxucularına təqdim edirdi. Bu mənada onun Qobsek və Nüsinjen obrazları xüsusi ilə maraqlıdır. Hər ikisi Böyük Fransa burjua inqilabı nəticəsində varlanmışlar. Ümumiyyətlə, o dövrdə bir çox insanlar inqilabdan şəxsi mənafeləri naminə yararlana bilmişdilər.

Onun **«Qorio ata»** əsərinin məzmunu olduqca maraqlıdır. Belə ki, müəllif kapitalist dünyasının daxilini ədəbi-bədii şəkildə işləyərək əks elətdirmişdi. Əsərdə göstərilir ki, bu hekayənin başladığı zamanlarda pansionda 7 nəfər kirayəşin yaşayırdı. Otaqların birində madam Vokenin özü yaşayırdı. O, çox kök bir qadın idi, özünü Qorio ataya sırımaq istəyirdi. Lakin onun bu niyyəti baş tutmadı. Əsərin sonunda kirayəşinlərin köçüb getməsi də onunçün dəhşətli bir hadisə oldu. Otağın o birisində isə Respublika dövrünün komissarının dul arvadı madam Kütür yaşayırdı. Onunla birlikdə Viktorina Tayfer adlı gənc bir qız da yaşayırdı ki, madam Kütür ona analıq edirdi. Viktorina Tayferin atası çox imkanlı bir şəxs olmuşdur, anası isə kasıb bir qadın idi. O, anasını itirmişdir, atası isə Viktorinanı mirasdan məhrum edib, bütün var-yoxunu oğluna vəsiyyət eləmişdir. Viktorina nə qədər göz yaşı töküb anasının təmiz adını qaytarmağa çalışsa da atası onun bu cəhdlərini rədd etmişdir.

V.Tayfer tələbə Rostinyakı sevirdi. Volterin bundan xəbər tutanda elə bir şərait yaradır ki, dueldə onun qardaşını öldürsünlər. Beləliklə, Viktorina bütün mirasa sahib olmaq hüququnu qazanmış olur. Volterin bunu ona görə istəyirdi ki, Rostinyak Viktorina ilə evlənsin və varlansın. Rostinyak bu duelə mane olmağa çalışsa da, mümkün olmur. Volterin isə onlara şərab içirməklə öz planını həyata keçirir. Volterin isə özünü keçmişdə ticarətlə məşğul olmuş bir insan kimi təqdim edirdi. Amma əslində o kotorqa dustağı Kolen idi. Bu sirrin üstünü isə burada yaşayan Mişono və Puare açırlar. Byanşon ona dünən Mişonanın «Ölüm yalan» adlı bir şəxsdən danışdığını söyləyir. Bu Kolenin ləqəbi idi. Polislər Koleni tuturlar, kirayəşinlər isə Müşononu satqınlığına görə öz yanlarından qovurlar.

Qorio ata qədim əriştə fabrikibinin müdiri olmuşdur. O, əvvəllər fəhlə kimi çalışmışdır. Qənaətcil, təşəbbüskar adam olduğundan 1789-cu ildə birinci üsyanın təsadüfən qurbanı olan sahibkarın müəssisəsini tamamilə ələ keçirmişdir. Onun sərvəti əsasən hiyləgər siyasət nəticəsində qazanılmışdır: Onun varlanmağı həqiqətən, yaxud qəsdən yaradılmış aclıq dövründə, Parisdə çörəyin qiyməti çox yuxarı qalxdığı bir dövrə təsadüf edir. Qorio atanın iki qızı vardı. Öz gözəlliyi ilə qraf de Restonu məftun edən Anastazi aristokrat dairələrinə can atırdı. O, yüksək cəmiyyətdə dolaşmaq məqsədilə öz ata evini tərk eləmişdi. Anastazi de Rosto Markizi sevirdi. Markiz isə onun bütün var-

dövlətini əlindən almağa nail olur. O, bacılarının borclarını qaytarmaq üçün Anastazidən, Anastazi isə Qorio atadan istifadə edir.

Əsərdə təsvir olunan Delfina surəti pula həris bir insandır. O, alman nəslindən Müqəddəs Roma imperiyası baronlarından olan bankir Nüsinjenə ərə gedir. Qorio ata qızları üçün hər şey edir. Ancaq bunun müqabilində onlardan yalnız bir şey istəyir. Bu da qızlarının ona olan sevgisidir. Amma qızları ona qarşı biganədirlər, hətta cənazəsini dəfn etməyə belə gəlmirlər.

Qorio ata deyir: «…Mən Allahı yalnız ata olduqdan sonra sevdim. Allahın yaratdığı özündən gözəl deyil, amma mənim yaratdığım məndən daha gözəldir. Ona görə də Allah yaratdıqlarını sevdiklərindən daha artıq mən öz yaratdıqlarımı sevirəm. Mən behişdəki yerimi belə onlara verib cəhənnəmə getməyə hazıram». Ölməmişdən qabaq Qorio ata yalnız öz qızlarının adını sayıqlayırdı. Öləndə Byanşonu və Rastinyakı qızları bilib, «ah mənim mələklərim, axırı ki, gəldiniz», deyərək, gözlərini yumdu. Anastazi gələndə isə artıq atası dünyasını dəyişmişdi.

Əsərdə Rastinyak surəti də müəllif tərəfindən olduqca dolğun təsvir olunmuşdur. Rastinyak tələbədir, hüquq fakultəsində oxuyur. Kübar cəmiyyətinə daxil olmaq üçün varlı bir qadını sevmək, onun məşuqu olmaqla varlanmaq istəyir. Onun əmisi qızı Boseon onu kübar cəmiyyətə təqdim edir. Rastinyak əvvəlcə Anastazini hədəfə alır. Bu, baş tutmadıqda isə Delfina de Nüsinjenlə məhəbbət macəraları yaşayır. Delfina ilə yaxınlığını bilən Qorio ata ona daha çox bağlanır və Rastinyaka ev alır. Özü üçün isə yuxarı qatda mənzil tutur ki, qızını tez-tez görə bilsin. Ancaq ölüm bu arzuların gerçəkləşməsinə imkan vermir.

Əsər belə tamamlanır: «Ejen yalqız qaldıqdan sonra qəbiristanlığın təpəciyinə qalxaraq buradan Sena ətrafında qurulmuş Parisə baxır. İşıqlar yenicə yanmağa başlamışdı. Ejen gözlərini Vandon sütunu ilə əlillər evinin gümbəzi arasındakı yerə zillədi: Burada onu cəzb edən kübarlar dünyası yerləşmişdi. Ejen uğuldayan bu arı pətəyini, balın dadını duymaq üçün onu həris gözlərlə nəzərdən keçirdi və qəti qərara gələrək dedi:

- İndi səninlə döyüşək!

O kübarlar dünyasına meydan oxuyaraq ilk addımı atdı. Delfina de Nüsinjenin evinə nahar etməyə getdi».

Əsərin sonunda Balzak deyir: «Bax budur, kinli və rəzil kübar cəmiyyəti. Burada ancaq sənin faciəni başqalarına çatdırmağa tələsirlər».

Müəllifin ən maraqlı əsərlərindən biri **«Qobsek**»dir. Romanın əsas qəhrəmanı Qobsek, digər qəhrəmanı isə «Yevgeniya Qrande» romanının əsas obrazı Qrandedir. Qobsek müamiləçidir. Pul cəmiyyətin həyatında əsas qüvvəyə çevrildiyi dövrdə Qobsek kimi adamlar malik olduqları çoxlu pulun köməyi ilə bütün alverçiləri, dəllalları, yazıçıları öz əllərində saxlayırlar. Özlərini cəmiyyətini ən görkəmli nümayəndələri hesab edən bu adamların taleyi ilə, bəlkə də həyatları ilə oynamaq, öz şərtlərini diktə etmək və onların alçalmasına şahid olmaq. Qobsek bunlardan zövq alaraq deyirdi: «Mənim baxışlarım Allahın baxışlarına bənzəyir. Mən kimin ürəyində nə varsa, hamısını bilirəm. Məndən heç nəyi gizlətmək olmaz. Kim ki, qızıl torbasının ağzını açıb bağlayır, ona heç nəyi müzayiqə etmək olmaz. Mən idarə qulluqçularından tutmuş, onların aşnalarınacan bütün nazirləri idarə edən adamların vicdanlarını satın almaq iqtidarına malikəm. Mənim buna pulum çatır. Məgər bu hakimiyyət deyilmi? Mən gözəl qadınları ələ keçirib onların ən incə nəvazişlərinə nail ola bilərəm. Məgər bu nəşə deyilmidir?»

Balzak Qobsek surətini yaradarkən «Bəşəri komediya»sında olan bütün surətlərdən daha çox burada romantiklərin yolu ilə gedərək ədəbi boyalarını daha da qatlaşdırmışdır. Onun şüarı çox sərvət toplamaqdır. Qobsek deyir: «5 frank yaxşıdır, 15 frank daha yaxşıdır. Çünki 5 frank 15 frank, 15 frank isə 30 frank gətirir». Qobsekin başqa bir şüarı isə «qızıl hər şeydir, hər şey isə qızılsız heç nədir» şüarıdır: «Bəşəriyyətin bütün gücü qızıldadır». Ondan soruşanda ki, bu cür var-dövlət sahibi niyə ən mötəbər vəzifələrdən birinə işə düzəlmir, o bu suala belə cavab verir: «Bir halda ki, mən öz pulumun müqaibilində ən mötəbər vəzifə sahibini – naziri mənə xidmət etməyə məcbur edirəmsə, onda bu nazir özü mənə xidmətçidir. Bəs onda mən niyə xidmətçi olmalıyam?». Bu səbəbdən Qobsek sərvətini artırmağa çalışır, insanlara sələm verərkən, onların ona yalvarmasından həzz alırdı. Qobsek deyirdi: «Bu dünyada güclü var, gücsüz var. Əzən var, əzilən var. Əzilməkdənsə, elə əzmək yaxşıdır».

Balzak yaradıcılığına xas olan mühüm cəhətlərdən biri də onun əsərdə kontrast (bədii təzad) yaratmasıdır. Bu mənada «Qorio ata» əsərində müəllifin yaratdığı kontrast üsulu xüsusilə seçilir. Bir tərəfdə tələbə Rastinyak, digər bir qütbdə isə Qorio ata təsvir olunur. Tələbə Rastinyak heç bir şeyi olmayan, lakin böyük gələcəyi olan bir obrazdır. Əksinə, Qorio ata isə bir vaxtlar çox zəngin olan, lakin qızları naminə hər şeyini itirən kimsəsiz, yazıq bir insandır.